Kaspi 2019.- 9-12 noyabr.- S.22.

# Payız ovqatlı sətirlər



Tofiq Nurəli

Yağışlar başlandı, dostlar əlvida..,
Şəhərli gözəllər, məni unudun;
Yolumu gözləyir solğun çəmənlər..,
Məni haraylayı yağış buludu...

* * *

Payızın bu acı küləklərində
düşmək istəməyən, ey sarı yarpaq!.,
mən səni həmişə özüm bilmişəm...
Köçən durnaların qəmli səsiylə,
bir də, göz yaşıyla islanmış torpaq
mən səni həmişə özüm bilmişəm...

* * *

Payız göylərinin çaxdı şimşəyi..,
Başlandı köçhaköç, düşdü yır-yığış...
...Solğun çəmənlərə, bomboz düzlərə,
bomboş ürəyimə yağır bu yağış...

* * *

Şimşək işığıyla bir an içində
Könül pəncərəmi döydü bu göylər...
Eh.., mənim sizlərə yazığım gəldi
Damını ot basmış kimsəsiz evlər...

* * *

Ömür dumanlarda ötdü beləcə..,
Soldu bircə-bircə ömrün günləri...
...Bürüyüb dörd yanı kədərli duman -
Dumanın altında payız gülləri...

* * *

Bu tutqun gecəyə tökülür yağış..,
Yorur durnaları islaq qanadlar...
Kişnəyə-kişnəyə tullanır yenə
Şimşək işığında çidarlı atlar...

* * *

Bir durna can verir - gözündə təlaş..,
Əlimdən nə gəlir?., umsa da kömək...
Mən dönüb gedirəm - çiynimdə dağlar...
...Yolunu azanlar məhv olur demək...

* * *

Bu yurd ki, hər zaman gözlədi bizi:
Kimsəsiz damlarda otlar solanda..,
Yağışlar döyəndə uçuq hasarı..,
Palıdın yarpağı narınc olanda...

* * *

Payız gecəsində parıldayır ay
Cadugər əlində qızıl cam kimi...
Mənim göz yaşlarım, ay işığında,
Köhnə məzar üstdə təzə şam kimi...

* * *

Qaçqın çadırlarını yağışlar döyəcləyir..,
Tanrının qapısını qarğışlar döyəcləyir..,
Viran qalmış yurdları bayquşlar döyəcləyir -
Bir didərgin payız da gəlir.., beləcə gəlir...

* * *

Mən də dərdləşirəm payızla hərdən
Uzun gecələrdə səhərə kimi...
Payızı isterik ağlamaq tutur..,
Mən dönüb oluram payız həkimi...

* * *

Kaş qəlbimi verə biləm yellərə
Bu saralmış düzlər boyu sərələr...
Deyilməmiş sözlər qaldı sinədə
Şır-şırını xəzəl boğan dərələr...

* * *

Bir qızın kədərli göz yaşlarına,
Payızın nisgilli yağışlarına..,
Bir də ki, sap-sarı başdaşlarına
Dönüb mən bu kəndə qayıdacağam...

* * *

Ömür keçdi payızların içində..,
Payız imiş yaz bildiyim bu yazı...
Mən bilirəm, şaxtalara az qalıb
Gedim yığım budaqlardan payızı...

* * *

İlahi.., ürəyim payız istəyir...
Solğun yarpaqların ucundakı nəm...
...Niyə yazı-yazıq baxırsan, gülüm..,
Bu payız deyil ki.., bu elə mənəm...